**Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 8, maddə 440; 2006, 3, maddə 229, 6, maddə 498; 2007, 2, maddələr 86, 101, 3, maddələr 217. 227, 7, maddə 714, 9, maddə 867, 10, maddə 948, 12, maddə 1242; 2008, 1, maddə 9, 3, maddələr 173, 179, 6, maddə 499, 8, maddələr 717, 723; 2009, 2, maddə 66, 6, maddələr 419, 421,422; 2010, 2, maddə 80, 3, maddə 183, 10, maddə 850; 2011, 2, maddə 85; 2012, 11, maddə 1078; 2013, 3, maddə 236, 8, maddə 901; 2014, 9, maddə 1027; 2016, 5, maddə 854, 6, maddələr 1029, 1073; 2017, 5, maddə 840, 8, maddələr 1519, 1521; 2018, 7 (I kitab), maddələr 1445, 1486, 11, maddə 2287; 2019, 1, maddə 76, 4, maddə 655) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.9.5-1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.9.5-1. Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi;".

2. 2.1.1-ci yarımbəndə aşağıdakı məzmunda 4-1-ci abzas əlavə edilsin:

"4-1. Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi;".

3. 2.1.2-ci yarımbənd üzrə:

3.1. 4-1-ci abzas ləğv edilsin;

3.2. aşağıdakı məzmunda 9-1-ci abzas əlavə edilsin:

"9-1. Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində şöbə müdiri;".

4. 2.1.4-cü yarımbəndə aşağıdakı məzmunda 4-1-ci abzas əlavə edilsin:

"4-1. Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 avqust 2019-cu il
823